# Dünya üçün örnək

**Azərbaycan sivilizasiyaların və mədəniyyətlərin qovşağında yerləşdiyindən əsrlər boyu Asiya ilə Avropa arasında körpü funksiyasını yerinə yetirib, bu da ölkəmizdə mədəni müxtəlifliyin yaranmasında mühüm rol oynayıb. Çoxmədəniyyətli, çoxmillətli diyar olan Azərbaycanda tarixən müxtəlif xalqlar, millətlər azad, firavan yaşamış, özlərinə hər zaman tolerant münasibət görmüş, öz etnik-mədəni xüsusiyyətlərini heç bir təqibə məruz qalmadan inkişaf etdirə bilmişlər. Bu da onu deməyə əsas verir ki, Azərbaycan multikulturalizmin və tolerantlığın beşiyidir.**

Multikulturalizm ənənələri Azərbaycanda ta qədim zamanlardan mövcud olub. Azərbaycan dünyanın ən sabit, multikulturalizm ənənələrini yaşadan, onu qoruyan ölkələrdəndir. Tarixin müxtəlif dövrlərində Azərbaycanda məskunlaşan etnik və dini icmalar ölkənin ictimai-siyasi, mədəni həyatında mühüm rol oynayırlar. Bu gün dövlətimizin yürütdüyü məqsədyönlü siyasət ilə formalaşan multikultural mühitdə etnik-dini icmalar etnomədəni xüsusiyyətlərini, inanclarını, yaşam tərzlərini və adət-ənənələrini qoruyub saxlayırlar. Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olub, bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq, Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilib. Multikulturalizmin vətəndaşların həyat tərzinə çevrilməsi dövlətin inkişafının ən yüksək mərhələsidir.

Multikulturalizm Azərbaycan tarixində silinməz iz qoyan Ulu Öndər Heydər Əliyevin siyasi strategiyasının əsas istiqamətlərindən birini təşkil edirdi. Onun rəhbərliyi altında ölkəmizdə xalqımızın multikultural ənənələrinin qorunması və inkişaf etdirilməsi sahəsində mühüm addımlar atıldı. Heydər Əliyevin müdrik rəhbərliyi və uzaqgörənliyi ilə Azərbaycan xalqının unikal multikultural dəyərlərinin qorunması istiqamətində həyata keçirilən uğurlu siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilir.

Bu gün Azərbaycanda dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlar bərabər, sülh şəraitində yaşayırlar. Etnik və dini azlıqların bütün hüquqları Azərbaycan qanunvericiliyində öz əksini tapıb. Onların öz dillərində məktəb, kitabxana, məscid, kilsə, sinaqoq, teatr, qəzetləri var, dövlət strukturlarında, ictimai təşkilatlarda, seçkili orqanlarda təmsil olunurlar. Bütün bunlar Prezident İlham Əliyevin apardığı uğurlu multukulturalizm siyasətinin nəticəsidir. Bu gün inkişafımızın arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır. Azərbaycan milli, dini mənsubiyyətindən asılı olmayaraq, vahid vətəndaş birliyinin olması ilə Cənubi Qafqazın ən sabit ölkəsidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu multikulturalizm siyasəti ölkəmizdə etnomədəni inteqrasiya proseslərinin sürətlənməsinə güclü təkan verir. Onun beynəlxalq müstəvidə əks olunmasına gəldikdə isə sivilizasiyalar və mədəniyyətlər arasında, fərqli konfessiyalar arasında qarşılıqlı faydalı və bərabərhüquqlu dialoqun formalaşmasına, Azərbaycanın hüquqi, demokratik və dünyəvi dövlət kimi mövqeyinin daha da güclənməsinə əhəmiyyətli təsir göstərir. Mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli və effektiv dialoqun qurulması istiqamətində Azərbaycan hər zaman mütərəqqi təşəbbüsləri ilə öndə olub. 2008-ci ildə irəli sürülən "Bakı prosesi" buna gözəl nümunədir. Azərbaycanın belə bir qlobal hərəkatın təşəbbüskarı kimi çıxış etməsinin əsasında ərazisində tarixən fərqli dini mənsubiyyəti olan icmaların, azsaylı xalqların və zəngin mədəni müxtəlifliyin olması dayanırdı. "Bakı prosesi" dünya ölkələri tərəfindən qəbul olundu və qlobal hərəkata çevrildi.

"Bakı prosesi"nin davamı olaraq 2011-ci ildə Bakıda UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi və ICESCO-nun tərəfdaşlığı ilə 1-ci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşkil olundu. Bütün bu proseslərin davamlı olması onu göstərirdi ki, Azərbaycanda multikulturalizm və aparılan multikulturalizm siyasəti tarixi köklərə söykənir.

Multikulturalizmin Azərbaycan modeli etnomədəni rəngarəngliyin sosial-mədəni və hüquqi müstəvidə təminatı üçün müxtəlif etnik mədəniyyətlərin dirçəldilməsini, qorunmasını və inkişafını dəstəkləyib, dini-etnik icmaların Azərbaycan cəmiyyətinə fəal inteqrasiya olunması üçün əlverişli şərait yaradıb.

Dövlət başçısı multikulturalizmin və tolerantlığın Azərbaycan xalqının həyat tərzinə çevrilməsini bir nümunə olaraq dünyaya tanıtmaq, onun əldə etdiyi təcrübəni inkişaf etdirmək və təbliğini gücləndirmək istiqamətində də mühüm addımlar atıb. Belə ki, sivilizasiyaların qovşağında yerləşən Azərbaycanın zəngin mədəni-mənəvi irsə və tolerantlıq ənənələrinə malik olması beynəlxalq aləmdə etiraf edilən həqiqətlərdəndir. Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti onu çoxmillətli, çoxkonfessiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı etmişdir. Azərbaycan Respublikasında bu gün həmin mədəni, linqvistik, etnik rəngarəngliyin qorunmasına yönəldilən və uğurla həyata keçirilən dövlət siyasəti multikulturalizm sahəsində əsrlərdən bəri toplanmış böyük tarixi təcrübənin xüsusi qayğı ilə əhatə olunmasını, zənginləşdirilməsini, cəmiyyətdə bu istiqamətdə qazanılmış unikal nailiyyətlərin beynəlxalq aləmdə təbliğinin gücləndirilməsini zəruri edir. Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyini, eləcə də ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyətini nəzərə alaraq dövlət başçısının 2014-cü il 15 may tarixli fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb. Fərmana əsasən, mərkəzin qarşısına multikulturalizmin və tolerantlığın həyat tərzinə çevrildiyi Azərbaycan gerçəkliyinin mədəni, sosial, siyasi mahiyyətini öyrənmək və onun təbliği mexanizmini hazırlamaq, etnomədəni müxtəlifliyi azərbaycançılıq məfkurəsinin inkişafına yönəltmək, müxtəlif xalqlara aid mədəni irsi öyrənmək, vətəndaş cəmiyyətinin potensialından istifadə edərək tarix, mədəniyyət və dini abidələrin qorunub saxlanması prosesinə dəstək vermək, Azərbaycan Respublikasının, multikultural nailiyyətlərinin beynəlxalq mütəxəssislər tərəfindən öyrənilərək xarici ölkələrdə təbliğini təmin etmək kimi mühüm vəzifələr qoyulmuşdur. Prezident İlham Əliyev çıxışlarından birində vurğulayıb: "Bizim ölkədə multikulturalizm ənənələri hər zaman güclü olub və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması bu dəyərlərin təşviqi istiqamətində hökumətimizin atdığı daha bir addım idi".

Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədi ilə 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti sərəncam imzalamışdır. "Multikulturalizm ili" elan olunması ölkəmizdə böyük ruh yüksəkliyi ilə qarşılandı. Bu qərarın verilməsi həm də ölkəmizdə yaşayan etnik, dini azlıqlara olan diqqət idi. Bununla biz eyni zamanda öz milli-mənəvi, tarixi dəyərlərimizi bir daha dünya ictimaiyyətinə çatdırmaq imkanı əldə etdik. "Multikulturalizm ili"nin əsas məqsədi Azərbaycan xalqının birgəyaşayış, tolerantlıq ənənələrinin dünyaya daha geniş şəkildə təqdim edilməsi idi. Prezident İlham Əliyev çıxışında bildirib ki: "Azərbaycanda bu il "Multikulturalizm ili" elan edilibdir. Bu da xüsusilə indiki şəraitdə dünyaya bir mesajdır. Azərbaycan cəmiyyəti əsrlər boyu multikulturalizm şəraitində yaşayır. Hələ bu ifadə yaranmadan biz milli barışıq, tolerantlıq, qarşılıqlı dəstək və hörmət şəraitində yaşayırdıq. Bu gün bizim nümunəmiz dünyada öyrənilir və dəstəklənir". "Multikulturalizm ili" çərçivəsində keçirilən tədbirlər Azərbaycan multikulturalizm siyasətinin, multikulturalizm modelinin yerli və beynəlxalq səviyyədə təbliğinə böyük töhfələr verdi.

Azərbaycan Prezidenti İlham Əliyevin multikulturalizmin və tolerantlığın inkişafına, möhkəmləndirilməsinə və təbliğinə xüsusi diqqət və qayğısının nəticəsi olaraq ölkəmizdə etnomədəni münasibətlər özünün ən yüksək səviyyəsindədir. Azərbaycanda müxtəlif xalqların, fərqli dinlərin nümayəndələri qarşılıqlı hörmət və anlaşma şəraitində birgə yaşayır, ölkənin ictimai-siyasi həyatında fəal iştirak edirlər. Bu, Azərbaycanda formalaşmış vətəndaş həmrəyliyinin, sağlam etnik və dini münasibətlərin nəticəsidir.

Prezident İlham Əliyevin apardığı uğurlu multikulturalizm siyasəti özünü Azərbaycan xalqının şanlı qələbəsi ilə başa çatmış 44 günlük Vətən müharibəsində də göstərdi. Müharibədə etnik mənsubiyyətindən, dinindən, dilindən asılı olmayaraq, hamı "dəmir yumruq" ətrafında birləşdi. Onları qələbəyə ruhlandıran əsas amillərdən biri də məhz Müzəffər Ali Baş Komandana xalqımızın böyük inamı, etimadı və etibarı idi. Birinci Qarabağ savaşında olduğu kimi, 44 günlük Vətən müharibəsində də Azərbaycanın Ordusunun sıralarında ölkəmizdə yaşayan müxtəlif xalqların yüzlərlə, minlərlə nümayəndələri - əsgər və zabitləri xidmət etmiş, Vətənin müdafiəsinə qalxmışlar. Onların hər biri ölkəmizin ərazi bütövlüyünün bərpası naminə canından keçməyə hazır olduğunu misilsiz şücaətləri ilə sübuta yetirmişdir. Yüzlərlə şəhid arasında müxtəlif xalqların övladlarının - Aqarunovların, Yakovlevlərin, Polovinkoların, Senyuşkinlərin və başqalarının əziz xatirəsini Azərbaycan xalqı əbədi yaşadacaq, heç zaman unutmayacaq. Prezident İlham Əliyevin sözləri ilə desək: "Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı vardır. Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır".

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda uğurla inkişaf etdirilən multikulturalizmlə bağlı böyük təcrübə əldə edilib. Bu gün ölkəmizin multikulturalizm təcrübəsi dünyanın bir sıra dövlətlərinin diqqətini cəlb edir və öyrənilir. Bu təcrübənin əhəmiyyətindən danışan Prezident İlham Əliyev vurğulayıb: "Bizim təcrübəmiz öyrənilir. Əminəm ki, başqa ölkələrdə Azərbaycan təcrübəsi tətbiq olunduqda o ölkələrdə də dinlərarası, millətlərarası münasibətlər sağlam zəmində öz həllini tapacaqdır". Bu bir daha təsdiq edir ki, Azərbaycan dünyaya sülh mesajı ötürür və əmin-amanlığın hakim olmasında maraqlıdır.

***Rəvan HƏSƏNOV,***
***Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru***